# Dayanıqlı və tarazlı inkişaf ölkə iqtisadiyyatına yeni töhfələr verir

## *Azərbaycan "BMT-2030" Dayanıqlı İnkişaf Məqsədlərində nəzərdə tutulmuş hədəflərə çatmaq üçün mühüm tədbirlər həyata keçirir*

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji xəttə əsaslanaraq son illər ölkəmizdə dayanıqlı iqtisadi inkişafın təmin olunması məqsədilə çevik, adekvat addımlar atılıb, kompleks islahatların həyata keçirilməsi nəticəsində makroiqtisadi sabitlik möhkəmləndirilib, biznes və investisiya mühiti daha da yaxşılaşdırılıb, iqtisadiyyatın şaxələndirilməsi, regionların və sahibkarlığın inkişafı sürətlənib, qeyri-neft ixracı artıb.**

Məhz aparılan genişmiqyaslı iqtisadi islahatların nəticəsində, əvvəlki illərdə olduğu kimi bu ilin birinci yarısında da uğurlu nəticələr əldə edilib. Belə ki, cari ilin 6 ayında ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2 faiz artıb, inflyasiya birrəqəmli olmaqla 3 faiz təşkil edib. İqtisadiyyatın şaxələndirilməsində xüsusi rolu olan qeyri-neft sənayesində 8,8 faiz, kənd təsərrüfatında 7,6 faiz, informasiya və rabitə xidmətlərində 4,9 faiz, ticarətdə 2,5 faiz artıma nail olunub.

Birinci yarımildə dövlət büdcəsinin gəlirləri 9,8 milyard manat, xərcləri 9,5 milyard manat olub. Qeyri-neft sektoru üzrə dövlət büdcəsinə 4,1 milyard manat vəsait daxil olub ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 275 milyon manat və ya 7,3 faiz çoxdur. İqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 6,3 milyard manat əsas kapitala investisiya yönəldilib. Əsas kapitala yönəldilən vəsaitlər qeyri-neft sektoru üzrə 22 faiz, qeyri-neft sənayesi üzrə isə 69 faiz artıb.

Bu müddətdə əhalinin gəlirləri 9,3 faiz atmaqla inflyasiyanı 6,3 faiz üstələyib. Orta aylıq əmək haqqı illik müqayisədə 4 faiz yüksəlib, əhalinin sosial müdafiəsinə ölkə rəhbərinin xüsusi diqqəti sayəsində dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarda çalışanların əmək haqqı (bu kateqoriyadan olan insanların orta aylıq əmək haqları cari ilin əvvəlində ölkə Prezidentinin sərəncamı ilə 10 faiz), həmçinin pensiya və müavinətlər artıb.

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində Azərbaycan Prezidenti İlham Əliyev inkişafımızı belə dəyərləndirib: "Əlbəttə ki, bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 15 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik. Deyə bilərəm ki, biz böhrandan az itkilərlə çıxa bilmişik".

Mütəxəssislər belə hesab edirlər ki, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə başlanan yeni inkişaf modeli strateji hədəflərinə, əhatə dairəsinə, məzmununa və konkret reallaşma mexanizminə görə bitkindir. Buradan belə nəticə çıxarmaq olar ki, Azərbaycan iqtisadiyyatının yeni yüksəliş mərhələsi başlayır. Bu proqnozlara beynəlxalq reytinq agentliklərinin hesablamalarında yer almış qiymətləndirmələr kontekstində yanaşanda, onun əsaslı olduğu qənaətinə gəlinir.

Məsələn, tanınmış "Moody's" agentliyinin son hesabatında göstərilir ki, Azərbaycan iqtisadiyyatı 2018-ci ildə 1,5 faiz, 2019-cu ildə isə 3 faiz artacaq. İndiki qlobal böhran və iqtisadi vəziyyət şəraitində 1,5 faiz artım yüksək göstəricidir. Çünki həm dünya miqyasında iqtisadi-maliyyə böhranı davam edir, həm də böyük dövlətlər (ABŞ, Çin, Rusiya) arasında əsl iqtisadi müharibə başlayıb. Eyni zamanda, 2019-cu il üçün Azərbaycanda iqtisadi yüksəlişin builkindən 2 dəfə çox olmasının proqnozlaşdırılması birbaşa dövlətin həyata keçirdiyi inkişaf kursunun perspektivlərinə beynəlxalq mütəxəssislərin də böyük inamının olmasının ifadəsidir.

(davamı 2-ci səhifədə)

**Respublika.- 2018.- 2 oktyabr.- S.1.**

# Dayanıqlı və tarazlı inkişaf ölkə iqtisadiyyatına yeni töhfələr verir

## *Azərbaycan "BMT-2030" Dayanıqlı İnkişaf Məqsədlərində nəzərdə tutulmuş hədəflərə çatmaq üçün mühüm tədbirlər həyata keçirir*

**(əvvəli 1-ci səhifədə)**

Həmçinin, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik, Dünya Bankının "Doing Bussiness" hesabatları və 2018-ci il inklüziv inkişaf indeksi üzrə ölkəmizin mövqeyinin yaxşılaşması, dövlət başçısının rəhbərliyi ilə aparılan məqsədyönlü və gələcək tərəqqiyə hesablanmış iqtisadi siyasətin, görülən genişmiqyaslı işlərin məntiqi nəticəsidir.

Digər tərəfdən, beynəlxalq və regional əhəmiyyətli strateji layihələrin reallaşdırılması Azərbaycanın dünyada söz sahibi olması və etibarlı tərəfdaş statusunu daha da möhkəmləndirir. Xüsusi vurğulamaq lazımdır ki, ölkəmizin iştirakı olmadan regionda heç bir layihə həyata keçirilə bilməz. Buna misal olaraq cari ilin əvvəlində rəsmi açılışı olan "Cənub Qaz Dəhlizi" və TANAP layihələrini göstərmək olar.

Son illər Azərbaycanın sürətli iqtisadi inkişafına təkan verən amillərdən biri də Birləşmiş Millətlər Təşkilatının həyata keçirdiyi Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmasıdır. Xatırladaq ki, Azərbaycan da daxil olmaqla 2015-ci il sentyabrın 25-də BMT-nin 193 üzv dövləti "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"ni qəbul edib. Bununla ölkəmiz bu kollektiv təşəbbüsə qoşularaq, heç bir kəsin bu prosesdən kənarda qalmamasına söz verməklə, dünyanı dayanıqlı və güclü edəcək təxirəsalınmaz, cəsarətli və transformativ tədbirlərin həyata keçirilməsi öhdəliyini öz üzərinə götürmüşdür. Qeyd edək ki, BMT-nin bu İnkişaf Proqramı 3 təməl prinsipinə əsaslanır: iqtisadi artım, sosial irəliləyiş və ətraf mühitin qorunması. Bu məsələni diqqət mərkəzində saxlayan ölkəmizin rəhbəri Dayanıqlı İnkişaf Məqsədlərinin ölkəmizdə uğurla həyata keçirilməsi ilə bağlı Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında müvafiq fərman imzalamışdır. Şura müvafiq hökumət qurumlarının səylərini əlaqələndirir. Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı ölkəmizdə əvvəlcə maarifləndirmə işləri aparılıb, ictimaiyyət DİM-in hədəfləri barədə məlumatlandırılıb. Qısa müddət ərzində ölkəmizdə bu istiqamətdə 8 dövlət proqramı, 31 strategiya, 25-dən çox normativ-hüquqi akt araşdırılıb və prioritetlərin müəyyənləşdirilməsi ilə bağlı işlər görülüb. Azərbaycan prioritet olaraq 17 məqsədi, 107 hədəfi və 150 göstəricini özü üçün seçib. Hökumətin apardığı fəaliyyət nəticəsində qarşıya qoyulan məqsədlərə nail olunacaq və Azərbaycan BMT-nin bu qlobal layihəsinin həyata keçirilməsinə öz töhfəsini verəcək. Nəhayət 2030-cu ilədək dünya daha ədalətli, insanların hazırda qarşılaşdıqları problemlərin həllini tapacağı bir dünya olacaq.

DİM-də nəzərdə tutulan müddəaların icra olunması üçün ötən müddət ərzində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmişdir. Məsələn, 12 iyul 2018-ci il tarixdə İDEA İctimai Birliyi (Qeyd edək ki, İDEA İB-nin təsisçisi və rəhbəri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevadır) BMT-nin İctimai İnformasiya Departamentinin birgə təşkilatçılığı və Azərbaycan Gənclər Fondunun dəstəyi ilə Dənizkənarı Milli Parkda "BMT-2030" Dayanıqlı İnkişaf Məqsədlərinin əks olunduğu stendlərin açılışı mərasimi olmuşdur. Tədbirdə Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi və İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai, rezident əlaqələndiricisinin müavini Alessandro Frakasetti, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova və 100-ə qədər gənc iştirak etmişdir. Qeyd olunmuşdur ki, hazırda dünyada bəzi ölkələr və xalqlar müxtəlif əziyyətlərə məhkum olublar, iqtisadi cəhətdən bir çox dövlətlər geridə qalıblar, müxtəlif ölkələrdə insanlar aclıqdan, yoxsulluqdan əziyyət çəkirlər. Bir sıra yerlərdə xəstəliklər geniş yayılıb və bu da insanlar üçün məhdudiyyətlərə səbəb olur. Qaçqınlar problemi hazırda dünyanı narahat edən məsələlərdən birinə çevrilib. Beləliklə də BMT dünyanın simasının dəyişdirilməsi, iqtisadi gerilikdən əziyyət çəkən dövlətlərin iqtisadi cəhətdən inkişaf etdirilməsi, yoxsulluqdan əziyyət çəkənlərin bundan xilas olması, xəstəliklərdən əziyyət çəkən ölkələrdə xəstəliklərin kökünün kəsilməsi və bütövlükdə dünyada iqtisadi inkişafın, ədalətin təmin edilməsi məqsədlərini 2030-cu ilədək hədəf götürmüşdür. Belə bir tədbirin Dənizkənarı Parkda keçirilməsi maraqlı ideyadır. Çünki burada gəzən insanlar, o cümlədən turistlər stendlərdə Dayanıqlı İnkişaf Məqsədlərinin və hədəflərinin nədən ibarət olunduğunu biləcəklər.

Bu istiqamətdə atılan daha bir mühüm addım isə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının (DİMƏŞ) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) birgə təşəbbüsü ilə bu günlərdə Bakıda milli seminarın keçirilməsidir. Seminarda bildirilib ki, Azərbaycanda əhalinin 47 faizi kənddə yaşayır. Dayanıqlı İnkişaf Məqsədlərində qarşıya qoyulan bir sıra hədəflər, o cümlədən işsizliyin və yoxsulluğun aradan qaldırılması, iqtisadiyyatın şaxələndirilməsi kontekstində respublikanın kənd təsərrüfatının inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır. Təqdirəlayiq haldır ki, Azərbaycanın böyük uğurlarından biri 2001-2015-ci illərdə yoxsulluğun səviyyəsini 50 faizdən 4,9 faizə endirməsidir. Bu yöndə ölkənin qarşısında duran vəzifə 2030-cu ilədək yoxsulluğu sıfır səviyyəsinə endirməkdir.

Təhlillərdən belə bir qənaətə gəlmək olar ki, istər ölkə Prezidentinin rəhbərliyi ilə, istərsə də Dayanıqlı İnkişaf Məqsədlərində nəzərdə tutulan hədəflərin həyata keçirilməsi davamlı və dayanıqlı inkişafa və makroiqtisadi sabitliyin daha da möhkəmlənməsinə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yeni töhfələr verəcək.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

**Respublika.- 2018.- 2 oktyabr.- S.2.**